## T.Harv Eker və “*Milyonçu zəkasının sirləri*” kitabına dair rəylər

“T.Harv Eker bizə zamanın sınağından üzüağ çıxacaq daxili və zahiri zənginlik əldə etmək üçün yol xəritəsi və alətlər təqdim edir”.

– Dr.Denis Veytley,
*“Nəhəng toxumlar”ın müəllifi*

“T.Harv Eker zənginliyə aparan yolu sadə dillə və ustalıqla təqdim edir. Bu kitab onun zənginliyə dair prinsiplərini özündə əks etdirir”.

– Marsi Şimoff,
*həmmüəllif, “Qadının ruhunu qidalandıran toyuq şorbası”nın müəllifi*

“Bu kitabı elə diqqətlə oxuyun ki, sanki həyatınız ondan asılıdır. Maddi cəhətdən elə ola da bilər!”

– Antoni Robbins,
*dünyanın #1 təlimçisi*

“Milyonçu zəkasının sirləri” zəngin olmağın praktik yollarını ehtiva edən müqəddəs kitabdır. T.Harv Eker mifləri dağıdır və milyonçu olmağın sirlərini hamı üçün əlçatan edir. Bu kitabı mütləq oxuyun”.

– Cill Lublin,
*əsərləri yaxşı satılan müəllif,*
*“Şəbəkələşmənin sehri və Qerilla nəşri”nin müəllifi*

“Harv Eker dünyanın ən qeyri-adi təlimçilərindən biridir. Harvın texnikası insanı dəyişməyə qadirdir və hər dəfə o danışanda mütləq nəticə çıxarmaq olur”.

– Mark Viktor Hansen,
*həmtəsisçi,*
*70 milyondan artıq satılan*
*“Qadının ruhunu qidalandıran*
*toyuq şorbası”nın həmyaradıcısı,*
*“Bir dəqiqəlik milyonçu”nun həmmüəllifi*

# MÜNDƏRİCAT

*Minnətdarlıq*
9

T.Harv Eker kimdir və mən
onun kitabını niyə oxumalıyam?
10

I HİSSƏ
Sizin pul xəritəniz
20

II HİSSƏ
Varlı kimi düşünüb
kasıb və orta sinifdən fərqlənməyin 17 yolu
68

Bəs indi mən nə edim?
241

*Sərvətinizi bölüşün 244*
*İndeks 246*

# MİNNƏTDARLIQ

Kitab yazmaq müəllifin fərdi layihəsi kimi görünsə də, minlərlə, milyonlarla oxucusu olan kitabın ərsəyə gəlməsi üçün böyük bir komanda işləyir. Mən buna görə qızım Medison, oğlum Cessə təşəkkür edirəm. Eyni zamanda valideynlərim Sem və Saraya, bacım Meriyə, qardaşım Harveyə dəstəyinə görə təşəkkür edirəm.

Mişel Bör və Lin Littla çəkdikləri əziyyət və insanların həyatına toxuna bildikləri üçün təşəkkür edirəm.

Naşirim Bonni Solouya da dəstəyinə, məni həvəsləndirdiyinə, mənə kitab biznesinin çətinliklərinin öhdəsindən gəlməyə kömək etdiyinə görə təşəkkür borcluyam. *"HarperBusiness"* komandasına da təşəkkür edirəm.

Nəhayət, mən seminarlarımda iştirak edən hər kəsə, təşkilatçılara, tərəf müqabillərimə təşəkkür edirəm. Siz olmasaydınız, bir çox insanın həyatını dəyişən bu seminarlar ərsəyə gəlməzdi.

# T.Harv Eker kimdir və mən onun kitabını niyə oxumalıyam?

SEMİNARLARIMDA DEDİYİM İLK CÜMLƏ – "Mənim dediklərimə inanmayın" adətən iştirakçıları şoka salır. Niyə belə deyirəm? Çünki dediklərim yalnız şəxsi təcrübəmin və düşüncələrimin məhsuludur. İnsanlarla bölüşdüyüm fikirlərin heç biri mahiyyətcə həqiqət və ya yalan, doğru və ya yanlış deyil. Bu kitabda bölüşdüyüm fikirlər mənim, eləcə də minlərlə tələbəmin həyat təcrübəsini əks etdirir. Mən həm də inanıram ki, bu kitabdan öyrənəcəyiniz prinsipləri tətbiq etməklə həyatınızı tamamilə dəyişə bilərsiniz. Bu kitabı oxumaqla kifayətlənməyin. Elə düşünün ki, həyatınızın dəyişməsi sanki bu kitabdan asılıdır. Bu kitabdan özünüz üçün nəticələr çıxarın. İşə yarayanları saxlayın, işə yaramayanları atın getsin.

Biliram, eqoistcə səslənə bilər, amma bu, həyatınız boyu oxuduğunuz ən lazımlı kitab ola bilər. Bunun böyük iddia olduğunu mən də başa düşürəm, amma faktiki olaraq, bu kitab sizin əldə etmək istəyinizlə uğur arasında olan boşluğu doldurur. Yəqin ki, indiyə kimi bunların iki fərqli şey olduğunu öyrənmisiniz.

Şübhəsiz ki, siz başqa kitablar da oxumusunuz, kasetlərə və ya CD-lərə qulaq asmısınız, kurslara getmisiniz və istər daşınmaz əmlak, səhmlər, istərsə də zəngin olmağın yolları haqqında çoxlu məlumat əldə etmisiniz. Bəs sonra nə baş verib? İnsanların əksəriyyəti üçün heç nə! Oxuduqlarınız qısa bir enerji partlayışına səbəb olub və sonra sanki heç nə olmamış kimi əvvəlki həyatınıza davam etmisiniz.

Nəhayət, siz bu kitab sayəsində suallarınıza cavab tapacaqsınız. Həm də bu cavablar çox sadə olacağı üçün siz də bəyənəcəksiniz. Hər şeyin səbəbi budur: əgər sizin şüuraltı "maliyyə planınız" uğur üçün "təyin olunmayıbsa", öyrəndiyiniz, dediyiniz və etdiyiniz heç bir şeyin önəmi yoxdur.

Bu kitabı oxuduqca niyə bəzi insanların qismətinə varlanmaq, bəzilərininkinə isə mübarizə aparmaq düşdüyünü başa düşəcəksiniz. Siz uğurun, işəyaramazlığın və ya maliyyə uğursuzluğunun əsas səbəblərini anlayacaq və maliyyə imkanlarınızı yaxşılığa doğru dəyişməyə başlayacaqsınız. Siz həmçinin uşaqlıq illərinizin maliyyə planlarınıza necə təsir etdiyini və bu təsirlərin təhlükə-

li düşüncə və vərdişlərə necə gətirib çıxara biləcəyini başa düşəcəksiniz. Kitabda önünüzə çıxan deklarasiyalar sayəsində pessimist düşüncələrinizi "zəngin" düşüncələrlə əvəz edə, varlılar kimi uğur qazana bilərsiniz. Siz həmçinin gəlirlərinizi artırmaq və varlanmaq üçün praktiki, mərhələli strategiya işləyib hazırlayacaqsınız.

Bu kitabın I hissəsində hər birimizin pul ilə bağlı düşüncələrimizi və hərəkətlərimizi analiz edəcək, həmçinin zehnimizdəki pul planını yenidən nəzərdən keçirmək üçün dörd əsas strategiya ilə tanış olacağıq. Kitabın II hissəsində zəngin, orta və yoxsul təbəqələrə aid insanların düşüncə tərzləri arasındakı fərqi araşdıracaq və maliyyə həyatımızda daimi dəyişikliklərə səbəb olacaq on yeddi davranış şəkli ilə tanış olacağıq. Bu kitabda həmçinin sizi "Milyonçu kimi düşün" intensiv seminarının iştirakçıları olmuş və sonradan həyatda böyük uğur qazanmış tələbələrimdən gələn məktub və imeyllərlə də tanış edəcəyəm.

Bəs onda mənim təcrübəm nədən ibarətdir? Mən kiməm? Mən həmişə uğur qazanmışammı? Kaş ki...

Əksər insanlar kimi, mənim də "potensial"ım çox olsa da, bunu göstərmək imkanım az olub. Mən kifayət qədər çox kitab oxumuş, kasetlərə qulaq asmış, seminarlarda iştirak etmişəm. Uğur qazanmaq istəyim həddindən artıq çox olub. Bilmirəm, bunu pul qazanmaq üçün, azadlıq əldə etmək üçün, yoxsa valideynlərimin gözündə dəyər qazanmaq üçün istəyirdim. Amma hər halda,

"uğur" qazanmaq üçün həmişə dəridən-qabıqdan çıxmışam. 20-25 yaşlarımda müxtəlif biznes sahələrində özümü sınasam da, şans üzümə heç vaxt gülmürdü. Əlimdən gələni etməyimə baxmayaraq, heç nəyə nail ola bilmirdim. Mənə elə gəlirdi ki, "Loch Ness monster" ("Ness gölü canavarı") sindromundan əziyyət çəkirəm. Buna baxmayaraq, inadkarlığımdan əl çəkmir, mənə uyğun biznesə sərmayə qoysam, çox varlanacağımı düşünürdüm. Amma yanılırdım. Heç bir iş alınmırdı, ən azından məndə. Bu artıq məni narahat etməyə başlamışdı. Niyə mənim müvəffəq ola bilmədiyim işdə başqaları uğur əldə edə bilirdi? Axı mənim də "potensial"ım var?!

Beləliklə, ciddi araşdırma aparmağa başladım. İnanclarımı yenidən nəzərdən keçirəndə gördüm ki, varlanmaq istəsəm də, daxilimdə həmişə ciddi bir narahatlıq olub. Doğrusu, qorxmuşam. Uğursuzluqdan və ya daha pisi, uğur qazanıb sonra onu itirməkdən qorxmuşam. Belə olacağı təqdirdə kənardan axmaq kimi görünəcəyimi düşünmüşəm. Bundan daha betəri isə "potensial"ımın olması ilə bağlı düşüncələrimin puça çıxması da məni qorxudurdu. Potensialımın olmadığını və həyatımı mübarizə içində başa vurmalı olduğumu öyrənsəm, nə olardı?

Sonra bəxtim gətirdi, atamın zəngin dostlarından biri mənə məsləhət verdi. O, valideynlərimin evinə qonaq gəlmişdi. Uşaqlarla "kart" oynayarkən gözü mənə sataşdı. Həmin ərəfədə üçüncü dəfə idi ki, maddi sıxıntılar sə-

bəbindən atamgilə köçmüşdüm, daha doğrusu, onların zirzəmisində yaşayırdım. Böyük ehtimalla, atam dostuna mənim çıxılmaz vəziyyətdə olduğumu demişdi. Çünki o mənə elə yazıq gözlərlə baxırdı ki, sanki yasa gəlib.

– Harv, təzə başlayanda sənin kimi məndə də heç nə alınmırdı, – dedi.

Əla, onun sözləri mənə yaxşı təsir etdi. Mən gözümü soyulan divar kağızına zilləyib, sanki məşğul olduğumu göstərməyə çalışırdım.

O isə davam etdi:

– Lakin sonra aldığım bir məsləhət sayəsində bütün həyatım dəyişdi. İndi həmin məsləhəti sənə vermək istəyirəm.

– Ola bilməz, atam kimi mühazirə oxumağa başlayacaq. Dərd burasıdır ki, o heç mənim atam da deyil, – deyə düşündüm.

Nəhayət, o, fikrini izah etdi:

– Harv, əgər ürəyin istəyən kimi uğur qazana bilmirsənsə, deməli, sənin bilmədiyin bir şey var.

Dəliqanlı idim, hər şeyi bildiyimi düşünürdüm, lakin bank hesabımda siçanlar oynayırdı. Ona görə də qulaq asmağa başladım. O davam etdi:

– Sən bilirsən ki, varlı insanların əksəriyyəti eyni cür düşünür?

– Yox, heç bu barədə düşünməmişəm, – dedim.

O cavab verdi: